NİZAMİ GƏNCƏVİ ADINA
MİLLİ AZƏRBAYCAN ƏDƏBİYYATI MUZEYİ

ISSN 2522-4808 (Print)
ISSN 2702-0034 (Online)

# RİSALƏ

## *Elmi araşdırmalar jurnalı*

# 1-(24)2023



Bakı – "Elm və təhsil" – 2023

**Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyi**
**Elmi Şurasının 19 may 2023-cü il tarixli (protokol № 2)**
**qərarı ilə çap olunur**

*Baş redaktor:*
**Rafael Hüseynov,**
***akademik***

**Redaksiya heyəti:**
**Kamil Allahyarov, filologiya üzrə elmlər doktoru, professor, Nizami muzeyi, Azərbaycan**
**Xatirə Bəşirli, filologiya üzrə elmlər doktoru, professor, Nizami muzeyi, Azərbaycan**
**Şəfəq Əlibəyli, filologiya üzrə elmlər doktoru, professor, Nizami muzeyi, Azərbaycan**
**Aida Qasımova, filologiya üzrə elmlər doktoru, professor, Nizami muzeyi, Azərbaycan**
**Tofiq Məlikli, filologiya üzrə elmlər doktoru, professor, Nizami muzeyi, Azərbaycan**
**Rəhilə Qeybullayeva, filologiya üzrə elmlər doktoru, professor, Bakı Slavyan Universiteti, Azərbaycan**
**Mehdi Kazımov, filologiya üzrə elmlər doktoru, professor, Bakı Dövlət Universiteti, Azərbaycan**
**Paşa Kərimov, filologiya üzrə elmlər doktoru, dosent, AMEA Əlyazmalar İnstitutu, Azərbaycan**
**Ali Yavuz Akpınar, professor, doktor, Boğaziçi Universiteti, Türkiyə**
**Hasan Cavadi, professor, doktor, Kaliforniya Universiteti, ABŞ**
**Firuza Melvil, doktor, Kembric Universiteti, Böyük Britaniya**
**Özgen Felek, professor, doktor, Yel Universiteti, ABŞ**
**Campiyero Bellinceri, doktor, Venesiya Ka Foskari Universiteti, İtaliya**
**Mbaye Lo, professor, doktor, Dyuk Universiteti, ABŞ**
**Hendrik Boeşoten, professor, doktor, Maynz Universiteti, Almaniya**
**Nataliya Çalisova, filologiya üzrə elmlər doktoru, professor,**
**Rusiya Dövlət Humanitar Universiteti, Rusiya Federasiyası**
**Şodimaxammad Sufiyev, filologiya üzrə elmlər doktoru, professor,**
**Tacikistan Respublikası Elmlər Akademiyası, Tacikistan**
**Zemfira Səfərova, akademik, AMEA Memarlıq və İncəsənət İnstitutu, Azərbaycan**
**Cəfər Qiyasi, AMEA-nın müxbir üzvü, Azərbaycan**
**Məryəm Əlizadə, sənətşünaslıq doktoru, professor, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti, Azərbaycan**
**Marko Realini, professor, doktor, İtaliya Milli Tədqiqat Şurası, İtaliya**

**Risalə. Elmi araşdırmalar jurnalı. № 1 (24)**
**Bakı, "Elm və təhsil" nəşriyyatı, 2023, 120 s.**

Orta əsrlərdə müsəlman Şərqində yaradılan elmi əsərlər "risalə" adlanırdı. Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin klassik ənənəyə riayətlə "Risalə" adlandırılmış, ədəbiyyatşünaslıq və mədəniyyətşünaslıq problemlərinin elmi araşdırmalarından ibarət məqalələr toplusu ildə iki dəfə (yaz və payız) nəşr edilir. Bu elmi araşdırmalar jurnalı məzmunu etibarı ilə filologiya (Azərbaycan və dünya ədəbiyyatı, ədəbiyyat nəzəriyyəsi, ədəbi təhlil və tənqid, folklorşünaslıq, mətnşünaslıq) və sənətşünaslıq (muzeyşünaslıq) sahələri üzrə məqalələri əhatə edir. "Risalə" elmi araşdırmalar jurnalı filologiya və sənətşünaslıq elm sahələri üzrə Ali Attestasiya Komissiyasının tövsiyə etdiyi dövri elmi nəşrlər siyahısındadır. 2019-cu ildə Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin "Mətbu nəşrlərin reyestri"nə daxil edilmişdir (Reyestr № 4216). Eyni zamanda, "Risalə" elmi araşdırmalar jurnalı 05 aprel 2018-ci ildən EBSCO beynəlxalq elektron məlumat bazasına daxil edilmişdir (Müqavilə № 46516).

**© Nizami Gəncəvi adına**
**Milli Azərbaycan Ədəbiyyatı Muzeyi**
**© 2023**

# Oxuyacaqlarınız



# RİSALƏ
## *Elmi araşdırmalar jurnalı*

*№1.2023(24)*

## Mündəricat

**KLASSİK İRS: TARİXİ VƏ NƏZƏRİ PROBLEMLƏRİ**

*HÜSEYNOV Rafael.*
Köç ədəbiyyatının Azərbaycan fenomeni: Vətəndən Vətənə mühacirətin bədii və elmi irsi
doi.org/10.30546/2702-0034.1.24.2023.7

*BAXŞIYEVA Ülkər.*
Nizaminin "Leyli və Məcnun" məsnəvisi və "hami-ovçu" arxetipindən istifadə məsələləri
doi.org/10.30546/2702-0034.1.24.2023.21

*DƏMİROVA Cəmilə.*
İbn əl-Qatta və onun "Əd-durra əl-xatira" antologiyası
doi.org/10.30546/2702-0034.1.24.2023.28

**YENİ VƏ MÜASİR DÖVRDƏ ƏDƏBİ-MƏDƏNİ PROSES**

*DADAŞOVA İlahə.*
Şahin Fazilin "Divan"lar silsiləsində "Beşinci divan" strukturu, tematikası və ideya istiqamətləri39
doi.org/10.30546/2702-0034.1.24.2023.39

*MƏMMƏDLİ Şərqiyyə.*
XX əsrin əvvəllərində Azərbaycan poeziyasında folklor motivləri: forma və janr kontekstində
doi.org/10.30546/2702-0034.1.24.2023.50

*MƏHƏRRƏMZADƏ Tamilla.*
Məmmədağa Sultanovun şeir yaradıcılığı (XX əsrin 30-cu illərinin dövri mətbuat materialları əsasında)
doi.org/10.30546/2702-0034.1.24.2023.60

*MUSTAFAYEVA Göyərçin.*
Çağdaş uyğur ədəbiyyatının şəhid şairi Lütfulla Mütəllip yaradıcılığında milli mücadilə
doi.org/10.30546/2702-0034.1.24.2023.69

**TARİXİ-MƏDƏNİ ABİDƏLƏRİN QORUNMASI VƏ TƏDQİQİ. MUZEYŞÜNASLIQ**

*ABDULXALİKOV Firdavs.*
Миниатюры Камал Ад-Дина Бехзада на «Хамсе» Низами Гянджеви –
бесценные шедевры восточного изобразительного искусства
doi.org/10.30546/2702-0034.1.24.2023.83

*QƏDİROVA Afət.*
Həyatının mənasını xalqa xidmətdə görən dahi
doi.org/10.30546/2702-0034.1.24.2023.94

*BABANLI Tomiris.*
Kitablara bağlı ömür
doi.org/10.30546/2702-0034.1.24.2023.102

https://doi.org/10.30546/2702-0034.1.24.2023.94

**Afət QƏDİROVA**
**Filologiya üzrə fəlsəfə doktoru**
Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyi
**afetkadirova@gmail.com**

# HƏYATININ MƏNASINI XALQA XİDMƏTDƏ GÖRƏN DAHİ

**Açar sözlər:** Ulu Öndər, mədəniyyət, memarlıq, abidə, kompleks, tolerantlıq, mədəniyyətlərarası dialoq

**Keywords:** Great Leader, culture, architecture, monument, complex, tolerance, intercultural dialogue

**Ключевые слова:** Великий Лидер, культура, архитектура, памятник, комплекс, толерантность, межкультурный диалог

**Giriş.** Azərbaycanın minilliklərə dayanan şanlı tarixində ikinci dəfə əldə etdiyi müstəqillik illərində mədəniyyət siyasəti xəttinin prioritet istiqamətlərindən başlıcası mədəni irsin qorunması və təbliğinə xüsusi diqqətin ayrılması, milli-mənəvi dəyərlərə, həmçinin maddi mədəniyyət nümunələrinə müstəsna önəm verilməsidir.

Məhz uğurlu mədəniyyət siyasətinin nəticəsi olaraq bu gün Azərbaycan cəmiyyəti mədəni inkişaf xəttinə müvafiq varislik prinsipini ümumsosial səviyyədə nümayiş etdirərək daha mühüm və dəyərli hesab etdiyi mədəni sərvətlər kompleksinin mənimsənilməsinə ardıcıl, eyni zamanda məqsədyönlü münasibət göstərir.

Söz yox ki, bəhs etdiyimiz və fərəhlə örnək göstərdiyimiz proseslər təbiət hadisəsi deyil. Həmin mədəniyyət siyasətini, onun düşünülmüş strateji xəttini müəyyən edib, sarsılmaz iradə ilə ardıcıl şəkildə həyata keçirilməsinə rəhbərlik edən, hədəfləri müəyyənləşdirib yol göstərən və həmin yolun nəzərdə tutulan ünvana uğurla aparacağına qəti zəmanət verən böyük fikir və əməl adamı, iki əsrin qovşağında xalqımızı möhtəşəm sabahlara aparan, müasir müstəqil Azərbaycanın memarı olan Ulu Öndər Heydər Əliyev var.

Ulu Öndər Heydər Əliyevin Azərbaycan mədəniyyətinə həssas münasibəti onun mədəniyyətin bütün sahələrini əhatə edən əməli fəaliyyətində bariz müşahidə edilir. Mübaliğəsiz demək olar ki, bu gərgin və çoxsahəli fəaliyyət milli mədəniyyət tariximizin parlaq səhifələrini təşkil edir. "Xalqın maddi və mənəvi dəyərlərinin təzahür forması" [2, s.2] olan memarlıq bu səhifələrin həm də vizual görüntüsüdür.

Ulu Öndərin Azərbaycana rəhbərlik etdiyi dövr müasir Azərbaycan memarlığının tərəqqi dövrüdür fikrini mədəniyyətşünaslığa həsr edilmiş tədqiqatlar bir daha sübut və təsdiq edir. Bu baxımdan Azərbaycan Respublikasının Əməkdar memarı, professor Nəriman Əliyevin qeyd etdiyi kimi, "Bakının tikinti və planlaşdırılmasında 1970-1980-ci illər əsasən şəhərin kəmiyyət-ekstensiv istiqamətli inkişafını keyfiyyət-intensiv dəyişiklikləri əvəz edir. Bu, şəhərin daxili ehtiyat torpaqlarının daha effektli, mövcud planlaşdırma quruluşunun gələcək məqsədəuyğun funksiyasının dəyişəcəyini nəzərə alaraq mənimsənilməsi idi" [2, s.47]. Belə ki, bu dövrdə Bakı şəhərinin baş planı əsasında yeni yaşayış rayonlarının və mikrorayonların salınması, inzibati və kommunal binaların, qonaq evlərinin, elmi-tədqiqat institutlarının və tədris ocaqlarının, teatr və konsert salonlarının, idman komplekslərinin, ticarət-məişət, müalicə-profilaktika binalarının tikilməsi, eyni zamanda kompleks abidələrin, görkəmli mədəniyyət xadimlərinin abidələrinin

ucaldılması, qədim tarixi əhəmiyyətli dini və mədəni abidələrin bərpa edilməsi və bu kimi saymaqla bitməyən memarlıq nümunələri Ulu Öndərin mədəniyyətimizə bəxş etdiyi töhfələrin yalnız müəyyən bir qismidir.

**Milli maddi mədəniyyətimizin ünvanları.** Ulu Öndər Heydər Əliyev mədəniyyətimizin inkişafına yönələn qərarlarının yalnız fərman və sərəncamlarda ifadəsi ilə kifayətlənmir, çox zaman bu işlərə nəzarəti öz üzərinə götürür, başqa sözlə desək, özü də bilavasitə yaradıcı prosesin iştirakçısına çevrilirdi. Belə ki, ayrı-ayrı tarixi abidələrin salınmasına həsr olunmuş müşavirələrdə rəssamlarla, heykəltəraşlarla, memarlarla fikir mübadiləsi zamanı böyük milli təəssübkeşliklə verdiyi təklif və tövsiyələr o qədər kamil və professional şəkildə bildirilirdi ki, irəli sürülən mülahizələrlə abidələrin hazır eskizi yaranırdı. Belə olan halda, təbii ki, deyilənlərlə razılaşmamaq mümkün olmurdu.

Bu baxımdan H.Əliyevin Hüseyn Cavidin məqbərəsinin və ev-muzeyinin yaradılması ilə bağlı müşavirədəki (10 iyun 1995-ci il) çıxışı maraq doğurur: "Elə olmalıdır ki, məqbərə nə çox böyük, nə də çox kiçik olsun. Əsas fikrim belədir: qəbir məqbərənin içində olsun və orada elə bir şərait yaradılsın ki, insan girib orada ziyarət edə bilsin, qəbrin yanında dursun, düşünsün. Məqbərənin o tərəfdən, bu tərəfdən açıq olmasının tərəfdarı deyiləm. Tarixən yaradılan məqbərələrin də hamısı tamam örtülü olmayıb. Məsələn, Möminə xatun məqbərəsi tam qapalıdır, ancaq haradansa yuxarıdan bir balaca işıq düşür. Elə etmək lazımdır ki, bu məqbərənin içində sakit bir mühit olsun. ...Hüseyn Cavid əsərlərindən obrazların təsviri də səmimi olsa yaxşıdır. Hər halda məqbərənin içində heykəl, yaxud büst olsun. Hüseyn Cavidin surəti məqbərənin içində mütləq olmalıdır. Xahiş edirəm bunu nəzərə alasınız" [3, s.343; 345].

Həmin müşavirədəki çıxışında H.Əliyev memarlara ən əsası müasirliklə yanaşı, milli memarlıq ənənələrini də nəzərə almağı tövsiyə edir, bununla o, Azərbaycan memarlığında müasir və milli ornamentlərin sintezinin vacibliyini xüsusi olaraq diqqətə çatdırırdı.

Yeri gəlmişkən, Hüseyn Caviddən danışarkən cənazəsinin uzaq Sibirdən Azərbaycana gətirilməsi kimi möhtəşəm bir faktı vurğulayıb, bu işin ağlasığmaz inzibati, təşkilati və s. çətinliklərini böyük siyasi iradə və qətiyyətlə dəf edən misilsiz dəyərini qeyd etməliyik. Belə ki, Ulu Öndərin bu böyük ədibin məzarı üstündəki məqbərənin inşa edilməsi qərarı 15 illik sarsılmaz və inadlı yol keçmişdir. Yəni 1981-ci ildə H.Əliyevin şəxsi təşəbbüsü və gərgin səyi nəticəsində Hüseyn Cavidin cənazəsi Sibirdən gətirilərkən doğulduğu diyarda – Naxçıvanda dəfn olunması, elə həmin illərdə də bu böyük ədibin məzarı üzərində məqbərə ucaldılması qərara alınır. Məhz bu dövrdə H.Əliyevin Moskvaya, SSRİ rəhbərliyində yüksək vəzifəyə dəvət alması ilə bu iş yarımçıq qalır.

Və illər keçəndən, məlum 1990-cı ilin qanlı yanvar hadisəsindən sonra Moskvadan Azərbaycana dönən H.Əliyev ilk növbədə Hüseyn Cavidin qəbrini ziyarət edir və gördüklərindən mütəəssir olur. Məhz bu səbəbdən ozamankı Azərbaycanın rəhbərliyi və Ermənistan tərəfindən blokada şəraitində olan Naxçıvanın çətin vəziyyətində H.Əliyev sözügedən məsələnin həlli üçün bir neçə dəfə Naxçıvan Vilayət Partiya Komitəsinin rəhbərlərinə müraciət edir. Bundan sonra təklif edilən layihə, təəssüf ki, "məqbərə" məfhumunu əks etdirmir" [4, s.338]. Ulu Öndər qərarında israrlı olsa da, hələ 1981-ci ildən nəzərdə tutduğu bu ideyanı, qəbul etdiyi qərarı gerçəkləşdirə bilmir.

Sonralar, təxminən Azərbaycanda 1991-ci ildən 1992-ci ilin yayınadək ozamankı hakimiyyət dairələrinin Naxçıvana münasibəti daha da kəskinləşdiyinə görə H.Əliyevin üzərində düşündüyü niyyəti həyata keçirmək mümkün olmur.

Xalqın tələbi ilə ikinci dəfə ölkəyə başçılıq edən H.Əliyev 10 iyun 1995-ci ildə Hüseyn Cavidin məqbərəsinin və ev-muzeyinin yaradılması ilə bağlı müşavirədəki çıxışında bu barədə belə deyir: “Düzünü deyim ki, mən buraya gələndən bu planın həyata keçirilməsi fikri daim qəlbimdədir. Bu müddətdə də göstərişlər vermişəm, xahişlər etmişəm ki, layihələr hazırlasınlar. Ancaq bir çox ciddi problemlər buna imkan verməyib” [3, s.338-339].

Nəhayət, 15 illik niyyətlə əməl arasındakı üzüntülər, nigaranlıq bitir. Azərbaycanın mütəfəkkir şairi, dramaturqu, görkəmli ədibi Hüseyn Cavidin məqbərəsinin 29 oktyabr 1996-cı ildə Naxçıvanda təntənəli açılış mərasimi baş tutur. Bu da əlamətdardır ki, memar Rasim Əliyevin layihəsi əsasında hazırlanan bu məqbərə müasir memarlıq mədəniyyətinin kamil nümunələrindən biri kimi dəyərləndirilir.

Xalqımızın Ümummilli Lideri kimi siyasi, ictimai, iqtisadi sahələrdəki gərgin fəaliyyəti ilə yanaşı o, mədəni quruculuq işlərinə, o cümlədən milli-mənəvi dəyərlərin qorunmasına və təbliği işinə də xüsusi diqqət yetirir. Belə ki, H.Əliyevin Azərbaycan memarlığının inkişafına yönələn əhəmiyyətli xidmətlərindən biri də Molla Pənah Vaqifin Cıdır düzünə yaxın ərazidəki məzarı üzərində yaradılmış, açılış mərasimi 1982-ci il yanvar ayının 14-də baş tutan muzey-kompleksidir. Xüsusi olaraq qeyd etmək vacibdir ki, abidənin açılışından sonra məhz H.Əliyevin sərəncamı ilə hər il Şuşada Vaqif Poeziya Günləri keçirilməsi qərara alınmışdır. Təəssüf ki, 1992-ci ilin may ayının 8-də Şuşanın Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilməsi səbəbindən Vaqif Poeziya Günləri tədbirinə ara verilsə də, Şuşa işğaldan azad edildikdən sonra 2021-ci il avqust ayının 30-da Heydər Əliyev Fondu tərəfindən əsası Ulu Öndər tərəfindən qoyulan ənənə çağdaş dövrümüzdə də layiqincə davam etdirilməkdədir.

Memarlıq sahəsindəki bilgilərini yeri gəldikcə mütəxəssislərə bildirən H.Əliyev tarixi dini və mədəni abidələrin qorunmasını, burada ardıcıl bərpa işlərinin aparılmasını vacib hesab edirdi. Bu istiqamətdə aparılan işlərə, torpağımızın qədimliyinin əyani tarixi sübutları olan abidələrin bərpasına, qorunub saxlanılmasına və hər yeni nəslə tanıtdırmaq məsələsinə xüsusi həssaslıqla yanaşırdı.

Ulu Öndərin bu sahədəki fəaliyyətinin müstəsna əhəmiyyətli faktlarından biri də dahi Azərbaycan şairi Nizami Gəncəvinin 850 illik yubileyi münasibətilə məqbərəsinin yenidən qurulması haqqında qərarın qəbul edilməsidir. Gəncədəki alüminium zavodundan istehsal prosesində çıxan toz məqbərəyə ziyanverici təsir göstərdiyi üçün bir qrup mədəniyyət xadimi məqbərənin yerinin dəyişdirilməsi barədə H.Əliyevə müraciət etsə də, Ulu Öndər səkkiz əsrlik uzun bir zaman məsafəsinin irili-xırdalı ictimai-siyasi hadisələrinə sinə gərən məzarın yerinin dəyişdirilməsini məqbul hesab etməyərək, bir sıra təsirli və önləyici tədbirlərin həyata keçirilməsi haqqında göstərişlər verdi. Onun bu sayaq çoxsaylı səmərəli addımları, heç şübhəsiz ki, milli təəssübkeşlikdən, mədəniyyətimizə olan sonsuz sevgidən qaynaqlanırdı.

**Onun müqəddəs missiyası.** Bəllidir ki, Azərbaycan dünyəvi dövlətdir, yəni din dövlətdən ayrı olaraq fəaliyyət göstərir. Buna baxmayaraq, ölkəmizin dövlət siyasətinin bir səciyyəvi cəhəti də onun islam dini ilə bağlılığıdır. Belə ki, özünün uzun əsrlər boyu yaşadığı tarixi inkişaf yolunda Azərbaycan xalqının ictimai-mədəni həyatı, məişət və etiqad gerçəkliyi məhz islam dini ilə üzvi şəkildə bağlı olmuşdur.

Başqa sözlə desək, islam dini xalqımızın inanc və etiqad mənbəyi olmaq etibarilə bizim ictimai-siyasi, iqtisadi və mədəni həyatımızın az qala tərkib şərtlərindən biri olaraq qalmaqdadır. Çünki islam barış və rifah mənbəyi olaraq insanları mənəvi paklığa, ruhsal bəşəri əqidəyə yönəldən bir dindir. Bunu əsas tutaraq öz müdrik mövqeyini qətiyyətlə bəyan edən Ulu Öndər Heydər Əliyev islam dininin fövqəladə əhəmiyyət kəsb edən mənəvi ləyaqətlərini hər dəfə dilə gətirirdi.

Xüsusi olaraq qeyd etmək vacibdir ki, Ulu Öndərin bu sahədəki diqqəti və qayğısı yalnız islam dini abidələri, eləcə də ibadət yerlərinin bərpası ilə hüdudlanmırdı. Belə ki, ölkəmizdə yaşayan müxtəlif millətlərin və xalqların dini etiqadlarına həssas münasibət mədəniyyət siyasətinin başlıca prinsipləri səviyyəsində idi.

Bir qədər tarixə diqqət yetirsək, aydın görmək olar ki, Azərbaycan mədəniyyəti öz çoxəsrlik mövcudluğu dövrlərində həm başqa xalqların mədəniyyətlərinə təsir göstərmiş, həm də onlardan təsirlənmişdir. Həmin qarşılıqlı münasibətlərdə, yəni zənginləşmə və zənginləşdirmə, qarşılıqlı bəhrələnmə prosesləri nəticəsində milli mədəniyyətimiz başqa mədəniyyətlərlə yaxınlaşmış, proqressiv təmayüllərdən faydalanmışdır.

Azərbaycanda əsrlər boyu müxtəlif konfessiya təmsilçiləri bir-biri ilə yardım və əməkdaşlıq, qarşılıqlı anlaşma və ehtiram şəraitində fəaliyyət göstərmişlər. Çağdaş dövrümüzdə, xüsusilə milli müstəqillik qazanılandan sonrakı illərdə Ulu Öndər Heydər Əliyev ölkəmizdə tolerantlıq mühitinin formalaşması, müxtəlif mədəniyyətlərin özünəməxsusluğunun qorunub saxlanılmasına xüsusi önəm vermişdir.

Məhz Ulu Öndərin tolerantlıq və multikulturalizm siyasəti əsasında milli maraqların ən mühüm müddəaları çərçivəsində mədəni identikliyin formalaşdırılması, ayrı-ayrı etnosların və dinlərin nümayəndələrinin fəaliyyəti üçün geniş imkanlar yaradılmışdır. Belə ki, həmin siyasətin uğurlu nəticəsi olaraq müxtəlif dini konfessiyaların etiqad azadlığı, geniş və sərbəst həyat fəaliyyəti qanunvericilikdə təsbit olunmuş səviyyədə təmin edilmişdir. Azərbaycan Respublikası Konstitusiyasının 48-ci maddəsində qeyd edildiyi kimi: “Hər kəsin dinə münasibətini müstəqil müəyyənləşdirmək, hər hansı dinə təkbaşına və başqaları ilə birlikdə etiqad etmək, yaxud heç bir dinə etiqad etməmək, dinə münasibəti ilə bağlı əqidəsini ifadə etmək və yaymaq hüququ vardır” [1, s.17].

Onu da qeyd etmək lazımdır ki, məhz Ulu Öndər Heydər Əliyevin ardıcıl uzaqgörən siyasəti sayəsində mədəni müxtəlifliyi və milli özünəməxsusluğu özündə birləşdirən, humanizmə, tolerantlığa və multikulturalizmə söykənən vətəndaş həmrəyliyi əldə edildi.

1999-2001-ci illərdə ölkəmizin paytaxtında Müqəddəs Məryəm Ananın Miladı kilsəsi bərpa edilib fəaliyyətə başladı. Elə həmin dövrdə ölkəmizin katolik icmasına dini ayinlərin icrası üçün xüsusi bina ayrıldı. Bundan başqa, qısa müddət ərzində katolik kilsəsinin inşası başa çatdırıldı.

2002-ci ilin may ayında Roma Papası II İoann Pavelin ölkəmizə gəlişi və onun Ulu Öndərə səmimi münasibəti mədəniyyətlərin dialoqunun uğurlu perspektivinə, eləcə də ölkəmizdə hökm sürən dini tolerantlığın təsdiqinə ən bariz sübut sayıla bilər.

Heydər Əliyev çoxqütblü dünyanın dialektik inkişaf meyillərini həssaslıqla duyur, müdrik təhlilləri ilə mədəniyyətlərarası dialoqa xüsusi önəm verirdi. Çünki məhz belə bir dialoq etnik, dil, din, həmçinin mədəni ayrı-seçkilik kimi qəbuledilməz xətlərin meydana gəlməsinin qarşısını almağa qadirdir. Məhz mədəniyyətlərarası dialoq xalqların birlikdə irəliləməsinin, fərqli coğrafiyalarda yaşayanların, fərqli

sosial-siyasi quruluşların belə demokratik bir şəkildə ortaq universal dəyərlərə köklənməsini təmin edə bilər.

Müxtəlif səviyyəli tədbirlərdəki çıxışlarında Ulu Öndər dindən siyasi məqsədlər üçün istifadənin zərərli və təhlükəli olduğunu ayrıca qeyd edir, bu düşüncədə olanları həmin məqsədlərdən çəkinməyə çağırırdı. Onun qəti qənaətinə görə, ictimai mühiti, dili, dini, mədəniyyəti və həyat tərzi müxtəlif olan insanların uyğunlaşma prosesi vacibdir. Çünki fərqli mədəniyyətə malik insanların bəzi ortaq dəyərləri tapılmazsa, onların birlikdə yaşaması zərərli nəticələrə apara bilər. Odur ki, fərqli mədəniyyətə məxsus olan cəmiyyətlər yanaşı yaşamaqla mövcud dəyərləri qorumaq qayğısına qalmalıdırlar. Başqa sözlə desək, müxtəlif mədəniyyətlərə və dəyərlərə sahib olan insan cəmiyyətinin dinc yanaşı yaşamasının təməli, mənəvi-əxlaqi qarantı tolerantlıq, qarşılıqlı ehtiramdır.

Mədəniyyətin insan cəmiyyətində möcüzələr yaratmaq qüdrətinə inanan Ulu Öndər H.Əliyevin bütün mövcud problemlərin uğurlu həllini mədəniyyətlərarası dialoqda görməsi müdrik siyasi mövqeyin təsdiqi idi.

Ulu Öndər xalqın intellektual-mədəni təbiətinin formalaşmasında mühüm əhəmiyyət kəsb edən, ənənədən gələn dini əxlaqi-mənəvi dəyərlərə sahib çıxmağın və sadiq qalmağın vacibliyini vurğulayaraq Qurban bayramı münasibətilə Mir Mövsüm ağanın ziyarətgahında keçirilən görüşdəki (8 aprel 1998-ci il) nitqində deyirdi: “...Biz Azərbaycanda demokratik, hüquqi, dünyəvi dövlət qururuq. Bu, müstəqil Azərbaycanın gələcək yolunun ana xəttidir, indiki ifadə ilə desək, strateji yolumuzdur. Çünki bu, xalqımızın gələcəyi üçün ən düzgün və xalqımızı səadətə aparan ən ağıllı yoldur. Biz bu yolu seçmişik və bu yolla gedirik. Ancaq bununla bərabər, biz demokratik, dünyəvi, sivilizasiyalı dövlət quraraq bütün bəşəri dəyərlərdən istifadə edərək, ümumbəşəri dəyərlərin xalqımız üçün və milli mentalitetimiz, mənəviyyatımız üçün uyğun cəhətlərini götürüb tətbiq edərək heç vaxt dinimizdən, dini adət-ənənələrimizdən ayrıla bilmərik və imtina da edə bilmərik. Ona görə burada ziddiyyət yoxdur. Əksinə, çox qarşılıqlı münasibətlər var. Bu baxımdan Azərbaycan Prezidenti kimi mən Azərbaycanda dinin inkişafını təmin etmək üçün nə lazımdır edirəm və bundan sonra da edəcəyəm. Dinimizin bizə tövsiyə etdiyi və qoyduğu bütün adət-ənənələrdən səmərəli surətdə, həyatımızı daha da inkişaf etdirmək üçün istifadə etməliyik” [4, s.315].

Məhz bu səbəbdən H.Əliyev dini ocaqların yaranması, dini-tarixi əhəmiyyətli məscidlərin abadlaşdırma və bərpa işlərinə xüsusi önəm verirdi. Bu istiqamətdə görülən işlər içərisində konkret olaraq həmin dini abidələr sırasında islam tarixinin ölkəmizdə buraxdığı izlər baxımından, eləcə də xalqımızın dini etiqadında əhəmiyyətli yer tutan Bibiheybət ziyarətgahının bərpası işlərinə başlanıldı. Ulu Öndər vaxtilə məscidin partladılmasını İslam dünyasına qarşı böyük bir cinayət hesab etdiyi üçün “Bibiheybət məscidini bərpa etmək, daha da inkişaf etdirmək və ...əsrlərdən bəri yaşamış ziyarətgahı yenidən əvvəlki, bəlkə ondan da yuxarı səviyyəyə qaldırmaq”, “təkcə Azərbaycan xalqı, müsəlmanları üçün yox, həqiqətən bütün dünya müsəlmanları üçün ziyarətgah” olmasını “həm Azərbaycanın Prezidenti, həm də bir müsəlman vətəndaş kimi” [4, s.316] öz vəzifəsi hesab etmişdir.

XIII əsrdən yadigar qalan, həzrəti İmam Museyi-Kazımın qızı, həzrəti İmam Rzanın bacısı həzrəti Hökumənin məzarı olan yerdə ucaldılan, möhtəşəm memarlıq abidəsi kimi diqqəti çəkən Bibiheybət Məscid-Ziyarətgah Kompleksinin açılış mərasimi 12 iyul 1998-ci ildə baş tutdu. Neçə-neçə tarixi əsrlər boyunca təkcə azərbaycanlıların deyil, bütün İslam dünyasının ümid və pənah yeri olan, insanların



| www.risale.az

mənəvi cəhətdən kamilləşdiyi bu müqəddəs ocağın bərpasının, düşünürük ki, xalqın dini inanclarının da özünə qaytarılmasında olduqca əhəmiyyətli rolu vardır. Təsadüfi deyildir ki, məhz bu məsələyə xüsusi önəm verən Ümummilli Lider açılış mərasimindəki nitqində xalqa müraciətlə deyirdi: "Mən böyük iftixar hissi ilə deyirəm ki, Azərbaycan xalqı bütün çətinliklərdən, bəlalardan, məhrumiyyətlərdən, zillətlərdən keçərək öz dininə, mənəvi dəyərlərinə daim sadiq olmuşdur və heç bir hakimiyyət, hökmdar bunların məhv edilməsinə nail ola bilməmişdir. ...Görülən bu işlər Azərbaycanda islam dininin bugünkü vəziyyətini nümayiş etdirir. Bugünkü vəziyyət də odur ki, ölkəmizdə, cəmiyyətimizdə islam dini özünəməxsus yer tutubdur, mənəvi dəyərlərimizin daşıyıcısı və mənəvi qida mənbəyi kimi xalqımıza xidmət edibdir. Hesab edirəm ki, bu, xalqımızın son illərdə ən gözəl nailiyyətlərindən biridir" [4, s.398].

**Nəticə.** Yuxarıda adlarını sadaladığımız tarixi dini və mədəni abidələrə toxunmaqla "həyatımın mənası və məqsədi xalqa xidmət etməkdir" [Əliyev 2008, 317] deyən Ulu Öndərin bu istiqamətdəki məqsədyönlü yorulmaz fəaliyyətini, onun çoxşaxəli, eləcə də genişmiqyaslı əməllərini, mədəniyyətimizə xidmətinin yalnız cüzi hissəsini bir daha xatırlatdıq. Əminliklə demək olar ki, cəmiyyətimizin siyasi-ictimai həyatında, eləcə də mədəniyyətimizin hər sahəsində aydın nəzərə çarpan Heydər Əliyev imzası bu dahi şəxsiyyətin bundan sonra da əsrlərlə yaşayacaq nüfuzunun qarantıdır. Onun siyasi iradəsindən və mili təəssübkeşlikdən qaynaqlanan, ölkəmizin beynəlxalq nüfuzunun yüksəlməsinə yönələn milli mədəniyyət siyasətinin uğurları müasir Azərbaycanın inkişaf tendensiyasının konkret ifadəsidir.

Əlaqə
E-mail: **afetkadirova@gmail.com**

## İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT:

1. Azərbaycan Respublikasının Konstitusiyası./ Bakı: 2016, – 72 səh.
2. Əliyev, Nəriman. Heydər Əliyev və Bakının memarlığı./Bakı: 2005, – 224 səh.
3. Heydər Əliyev və mədəniyyət. Üç cilddə. Birinci cild./Bakı: "Nurlar" Nəşriyyat-Poliqrafiya Mərkəzi, – 2008, – 492 səh.
4. Heydər Əliyev və mədəniyyət. Üç cilddə. İkinci cild./Bakı: "Nurlar" Nəşriyyat-Poliqrafiya Mərkəzi, – 2008, – 524 səh.

**Məqaləyə istinad:** Afət Qədirova. Həyatının mənasını xalqa xidmətdə görən dahi. Risalə. Elmi araşdırmalar jurnalı. Nömrə 1 (24), 2023. səh.94-101.
Doİ: 10.30546/2702-0034.1.24.2023.94

*Afat GADIROVA*

## A GENIUS WHO CONSIDERS THE MEANING OF HIS LIFE THE SERVICE TO PEOPLE

***Summary***

Only a small part of the large-scale activities of the Great Leader Heydar Aliyev, who declared to the world that he is proud of being an Azerbaijani, is reported in the presented article. There are noted the activities of the Great Leader aimed at the national and cultural development of our people, the actions of this genius personality that will ensure the well-being of the country and its every citizen, and the development of their individual aesthetic worldview.

Here, the author highlights the steps taken in the direction of enriching the level of scientific, cultural and religious views, which are considered important issues of the development of the public consciousness of our people, and evaluates the manifestations of the real results of the political will and wise recommendations of the Great Leader Heydar Aliyev in all segments of that activity.

The article specifically mentions that the modernization process of Azerbaijan in the $21^{st}$ century is defined by benefiting from the human values that are considered relevant by the modern world. There is no doubt that the principles of legal state-building, which ensure the protection of human freedom in our country, originate from the interaction of different nationalities, separate confessions and their national-moral values, and the political-social realities of a multinational, multilingual society. It is these principles that the Great Leader Heydar Aliyev declares as his political line, and in this regard, he attaches great importance to intercultural dialogue.

The examples of architecture that the Great Leader called the form of manifestation of the material and spiritual values of the people, as well as some of the ancient religious and cultural monuments that were created and restored during his leadership of the country, become the object of research. It is concluded that the political and social activities of the Great Leader, his invaluable services in all areas of our national culture, including architecture, are the reveal of the purpose and meaning of the life of the nation's national leader, and the guarantor of his eternal life.

*Афет ГЕДИРОВА*

## ГЕНИЙ, ВИДЕВШИЙ СМЫСЛ СВОЕЙ ЖИЗНИ В СЛУЖЕНИИ НАРОДУ

***Р е з ю м е***

В представленной статье говорится лишь о малой части масштабной деятельности великого лидера Гейдара Алиева, заявившего на весь мир, что гордится тем, что он – азербайджанец.

В то же время, в статье отмечена деятельность великого лидера, направленная на национально-культурное развитие нашего народа, обеспечивающая благополучие страны и каждого ее гражданина, способствующая развитию индивидуального эстетического мировоззрения.

В статье автор освещает шаги, предпринятые в направлении обогащения уровня научных, культурных и религиозных воззрений, которые считаются важными элементами развития общественного сознания нашего народа, и дает оценку проявлениям реальных результатов политической воли и мудрых рекомендаций великого лидера Гейдара Алиева во всех сферах этой деятельности.

В статье особо отмечается, что процесс модернизации Азербайджана в XXI веке опирается на общечеловеческие ценности, которые являются актуальными в современном мире.

Несомненно, что принципы правового государственного строя, обеспечивающего защиту свободы человека в нашей стране, исходят из взаимодействия между собой различных национальностей, отдельных конфессий и их национально-нравственными ценностями, политико-социальными реалиями многонационального, многоязычного общества.

Именно эти принципы великий лидер Гейдар Алиев провозглашает своей политической линией, и в этой связи придает большое значение межкультурному диалогу.

В статье также становятся объектом исследований памятники архитектуры, которые великий лидер называл формой проявления материальных и духовных ценностей народа, некоторые древние религиозные и культурные памятники, созданные и отреставрированные в период его руководства страной.

В статье подчеркивается, что политическая и общественная деятельность великого лидера, его неоценимые заслуги во всех областях нашей национальной культуры, в том числе и в архитектуре, являются целью и смыслом жизни общенационального лидера нашего народа, гарантом его вечной жизни.